**Robert Qrin**

# YOLDANÇIXARMA SƏNƏTİ

Tərcüməçi:
Yaşar Əsədov

QANUN NƏŞRİYYATI

Robert Greene

# THE ART OF SEDUCTION

“Yoldançıxarma – hakimiyyətin son həddə təcəssümüdür. Onun sehrinə düşənlər və onun qarşısında geri çəkilənlər bunu məcburiyyət qarşısında yox, həvəslə və sevinclə edirlər. Qadınlara kişiləri məftun etmək xoş gəlir, kişilərə  qadınları; yazıçılar oxucuları valeh edir, aktyorlar tamaşaçıları, satıcılar alıcıları; siyasətçilər elektoratı, yəni mənimlə sizi yoldan çıxarırlar. Bu valehedici, həyəcanlandırıcı və çox vaxt sərt oyunun iştirakçılarını sonsuz sadalamaq olar. Lakin bu sənətə çox azları kamil yiyələnə bilir. Həmin azların, seçilmişlərin cərgəsinə necə düşəsən?

Məftuedici insan olmağı isə gizlində hər kəs arzulayır.

Yoldançıxarmanın taktikası və strategiyasını, insan psixologiyasının mahir bilicisi Robert Qrinin kitabında tapacaqsınız. Bu kitabda toplanan məsləhətlərə əməl edin və siz hər bir təbəssümünüzü, hər bir jestinizi, hər bir sözünüzü qarşısıalınmaz silaha çevirə, rəhbərlərinizin, həmkarlarınızın və ümumiyyətlə, ətrafınızda olan hər kəsin hədsiz-hüdudsuz etimadına nail ola bilərsiniz. Siz istənilən qadını (və ya kişini) sehrə sala biləcəksiniz, həmçinin də özünə əmin olan, gur, uğurlu şəxsiyyət olacaqsınız.

Odur ki, səs-küylü bestsellerlərin və ilk növbədə də “Hakimiyyətin 48 qanunu”nun müəllifi olan Robert Qrinin bu kitabını vaxt itirmədən oxuyun.

**Robert Greene THE ART OF SEDUCTION**
**Robert Qrin YOLDANÇIXARMA SƏNƏTİ**
Bakı, QANUN nəşriyyatı, 2023, 256 səh.

Ölçü: 130x200 mm
Cild: yumşaq
Çapa imzalandı: 20.02.2023

Tərcüməçi: Yaşar Əsədov
Redaktor: Elxan Xanəlizadə
Korrektor: Ceyran Abbasova
Mətn dizaynı: Rahilə Şamilqızı
Qapaq dizaynı: Rafael Qasım
Texniki redaktor: Lalə Hüseyn

QANUN nəşriyyatı
Bakı, Azərbaycan, AZ1102, Tbilisi pros., 76
Тел.: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212 42 37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing

ISBN 978-9952-26-913-0

© QANUN nəşriyyatı, 2018; 2020; 2023
© The Art of Seduction, 2001

Bu kitabın Azərbaycan dilinə tərcümə və yayım
hüquqları Qanun Nəşriyyatına məxsusdur.
Kitabın təkrar və hissə-hissə nəşri «Müəlliflik hüququ və
əlaqəli hüquqlar haqqında» Azərbaycan Respublikasının
Qanununa ziddir.

# ÖN SÖZ

Ətrafda hamı hər vaxt bizə təsir göstərməyə çalışır. Necə hərəkət etməli olduğumuzu bizə daim öyüd-nəsihət etsələr də, öyrətsələr də, biz hər dəfə bu cəhdləri rədd edir, dəlillərə müqavimət göstərir, dəlilləri süngü ilə qarşılayırıq. Lakin tez və ya gec hər şeyin dəyişdiyi və adamın başqa cür hərəkət etməyə başladığı məqam bizi haqlayır. Həmin məqam biz sevəndə yetişir. Biz sanki sehrli qüvvələrin hakimiyyəti altına düşürük. Adi vaxtda başımız şəxsi qayğılarımıza qarışıb, indi isə onu sevgili haqqında fikirlər doldurur. Biz emosional oluruq, sağlam düşüncə tərzini itiririk, elə axmaqlıqlar törədirik ki, əvvəllər bunları heç bir vəchlə etməzdik. Əgər bu hal uzanırsa, daxilimizdə nə isə qırılır: biz əvvəl-axır geri çəkilir, sevdiyimiz adamın, bununla birlikdə isə ona yiyələnmək arzumuzun iradəsinə tabe oluruq.

Məftunedicilər kapitulyasiyanın belə dəqiqələrində başgicəlləndirici hakimiyyət əldə etdiklərini tam həcmdə dərk edirlər. Onlar sevən adamların qəlblərində eşələnir, bu proseslərin psixoloji aspektlərini öyrənirlər: təxəyyülü oyadan nədir, yoldançıxarma bacarığını haradan götürülür? İnstinkti rəhbər tutan və yaxud təcrübə toplayan tovlayıcılar insanlarda sevmək halını şüurlu surətdə və istiqamətləndirilmiş qaydada doğurmaq sənətinə yiyələnirlər. Qüdrətli məftunedicilər bilirlər: aşiq olmağı doğurmaq, şəhvət doğurmaqdan qat-qat vacibdir. Sevən hissiyyatlıdır, zəifdir, başaldatmaya asanlıqla uyur. Şəhvətin hakimiyyəti altında olan adamı nəzarət altında saxlamaq nisbətən çətindir və üstəlik də, həzz alandan sonra o peşmançılıq çəkmədən sizi tərk edə bilər. Məftun etməyi bacaran şəxslər tələsmədən hərəkət edirlər, onlar ovsunlayırlar, qurbanlarını sevgi bağları ilə sarıyırlar, cismani yaxınlığın onu yalnız daha güclü kölələşdirməsinə nail olurlar. Sevməyə sövq eləmək, ardınca isə qurbanı fəth etmək, bütün tip – seksual, sosial, siyasi və s. səciyyəli yoldan çıxarmalar üçün ümumi modeldir. Sevən kapitulyasiya etməyə, sadəcə olaraq, məcburdur.

Bu qüvvəyə qarşı qalxmaq, buna heç bir maraq hiss etmədiyinizi beyninizə yeritmək, bunun mənəviyyatsızlıq və yaxud yaxşı hərəkət olmadığına apelyasiya etmək faydasızdır. Siz yoldan çıxmanın təhrikinə – bir ideya olaraq, bir hakimiyyət forması olaraq – nə qədər güclü müqavimət göstərirsinizsə, o sizi bir o qədər möh-

kəm qamarlayır. Səbəb sadədir: bizə aşiq olan adamlar üzərində hakimiyyətimizi hiss etmək hər birimizə heç olmasa bir dəfə nəsib olub. Hərəkətlərimiz, jestlərimiz, tələffüz etdiyimiz sözlər – bunlar hamısı bizə aşiq olan adamın gözünə füsunkar görünür. Bunun necə və nə üçün baş verdiyini, ola bilsin, heç özümüz də tam anlamasaq da, hakimiyyət hissi şirin zəhər kimi bizə hopur. O bizə inam verir, bu isə, öz növbəsində, məftunetməmizi bir az da artırır. Xüsusilə ilhamlandığımız, ruh yüksəkliyi duyduğumuz günlər yəqin hər kəsə tanışdır və bu vaxt ətrafımızda olanlar bizi daha yaxşı başa düşür, bizim təsirimizə uyurlar. Hakimiyyətin belə məqamları ötəri olsa da, gur xatirələrlə yaddaşlara həmişəlik həkk olur. Biz onları qaytarmaq istəyirik. Ona görə də insanlar Sirenanın[1] haylaması qarşısında duruş gətirə bilmirlər, müasir dünyada tovlayıcı olmaq bacarığından çox heç nə hakimiyyət gətirmir. İnsanların üzərində bu növ hakimiyyət əldə etmək üçün öz xarakterini kardinal şəkildə dəyişmək və yaxud xarici görkəmin kamilləşdirilməsi ilə məşğul olmaq heç də mütləq deyil. Yoldan çıxarma – gözəllik üzərində yox, psixologiya üzərində qurulan oyundur və bizlərdən praktiki olaraq hər birimiz onu ən yüksək səviyyədə mənimsəməyə qabilik. Bunun üçün tələb olunan nə varsa, bu – dünyaya başqa, məftunedicinin gözü ilə baxmaqdır.

Məftunedicilər özlərinə qapanmayıblar. Onların nəzərləri daxilə yox, xaricə yönəlmişdir. Kiminlə isə rastla-

[1] **Sirena** – qədim yunan əsatirində: dəniz pərisi.

şanda onların birinci istəyi – həmin adamın düz təbiətinə nəzər yetirmək, onun dərisini öz əyninə ölçmək, dünyanı onun gözü ilə görməkdir. Özünə qapanma inamsızlığın əlamətidir, inamsızlıq isə antiyoldançıxarıcıdır. Hər kəsin kompleksləri var, ancaq məftunedicilər öz zəifliklərinin öhdəsindən gəlməyə müvəffəq olurlar. Şübhələr məftunediciləri üstələyən vaxt onlar özlərinə qapanmırlar, əvəzində dünya ilə qaynayıb-qarışırlar. Bu onlara həyatsevərlik verir və biz belə adamların yanında olmaq istəyirik. Başqasının dərisinə girmək, özünü başqası kimi təsəvvür etmək bacarığı məftunedicilərə qiymətli informasiya yığmağa, bu adamı nəyin narahat etdiyini, onun sağlam düşünmək qabiliyyətini nədən itirə bildiyini, onu necə aldadıb tələyə salmaq mümkün olduğunu başa düşməyə imkan verir.

Yoldançıxarıcılar – həzz təchizatçılarıdır. Uşaqlıqda biz həyatımızın əhəmiyyətli hissəsini oyunlarda və əyləncələrdə keçiririk. Yaşa dolandan sonra insanlarda bu cənnətdən qovulduqları hissinin meydana çıxması heç də nadir hal deyil: onlar sevincdən məhrum olunublar, qayğı yükü onları basıb əzir. İnsanlara həyatda həzz, sevinc çatışmadığını yoldançıxarıcı – onlar özləri özlərinə kömək etmək halında deyillər, bu tələbatı tam həcmdə qane etmək dostların və məşuqların qüvvəsi xaricindədir. Bizim həyatımıza daxil olub macəralar və romantika təklif edənlərin qarşısında məhz buna görə duruş gətirmək mümkün deyil.

Həyat yoldançıxarıcı üçün teatr kimi görünür, insanların hamısı onun üçün – aktyordur. Əksəriyyət həyatda öz rolunun dar çərçivələrlə məhdudlaşdığını hesab edir və nəyi isə dəyişməyin mümkün olmamasının dərki insanı bədbəxt edir. Məftunedicilər, əksinə, çoxsimalıdırlar, onlar kim istəsələr ola və istənilən rolu ifa edə bilərlər. Bax bu azadlıq, cismani və ruhi mütəhərriklikdir onlarda özünə cəzb edən.

"Yoldançıxarma sənəti"nin təyinatı sizi məlahət və şarmla[1] silahlandırmaqdır, bunun sayəsində insanlar nəyin və nə üçün baş verdiyini dərk etmək əziyyətinə qatlaşmadan, sevinclə sizə tabe olacaqlar.

Hər cür məftunetməyə iki komponent daxildir, onlardan hər birini dərindən təhlil etmək və başa düşmək lazımdır: birinci – özünüz və sizdə məftunedici olandır; ikinci – qurbanınızın müqavimətini qırmaq, onun kapitulyasiyasına nail olmaq üçün həyata keçirilən hərəkətlərdir. Həm bu, həm də o biri bərabər qədər həlledici və təsirlidir. Əgər şəxsiyyətinizin məhz hansı cəhətlərinin əhatənizdəki insanlar üçün cəlbedici olduğu barədə düşünüb-daşınmadan hərəkətə keçərsinizsə, sizdən mexaniki, qeyri-səmimi və qeyri-mütəhərrik tovlama alınacaqdır. Digər tərəfdən, əgər siz partnyorun xarakteroloji səciyyələrini nəzərə almadan yalnız özünüzə əsaslanarsınızsa, onda kobud səhvlər törədəcək və bununla da imkanlarınızı məhdudlaşdırmış olacaqsınız.

---

[1] **Şarm** (fr. *charme* – "məftun etmə; lətafət", lat. *carmen* – "nəğmə; hikmət; cadu" sözündən əmələ gəlib) – hüsn; füsunkar; valehedici.

Ona görə də “Yoldançıxarma sənəti” kitabı iki hissədən ibarətdir. Birinci hissə, “Məftunedicinin portreti” – onların doqquz tipini təsvir edir. Onları tədqiq edərək özünüzün hansı tipə aid olduğunuzu müəyyən edə biləcəksiniz, axı istənilən yoldançıxarma üçün tikinti materialı qismində məhz sizin şəxsiyyətiniz çıxış edəcəkdir. İkinci hissəyə, “Yoldançıxarma prosesi”nə – yoldançıxarmanın əsas strateji gedişlərinin qələmə alındığı iyirmi dörd fəsil daxildir. Bu fəsillər necə məftun etmək, müqaviməti necə qırmaq, yoldançıxarmaya canlılıq və qüvvə necə vermək və qurbanı kapitulyasiyaya necə meyilləndirmək haqqında danışacaq.

Bu kitabın səhifələrinə vararaq hekayətin sizi ələ keçirməsinə izin verin, ona yol verin, qərəzliyi və əvvəlki inamlarınızı bir kənara ataraq qarşılayıb, idrakınızı açın. Tədricən siz şirin zəhərin yavaş-yavaş dərinizdən keçərək daxilə sızdığını duyacaqsınız. Bu sənəti addımbaaddım dərk edərək siz gözü açıq olmağı, hər şeydə, o cümlədən də fikirlərinizin nizamında yoldançıxarma görməyi öyrənəcəksiniz və indən belə sizin dünyanı qavramağınızı məhz bu müəyyən edəcəkdir.

*Robert Qrin*

Ən möhtəşəm məziyyət – geri boylanmadan şirniklənməyə uymaq tələbatıdır.

*Natali Barni*

Varsa yerlilərimdən sevgi elmini bilməyən,
O kəs, kitabımı oxu, sevməyi öyrən.
Bilik avarı və yelkəni yönəldib sürür gəmilər,
Bilik atları çapır, biliyə ram olub Amur.

*Ovidi, "Sevgi elmi"*

Sevgidən edilən hər şey, həmişə xeyir və şərin o tayında baş verir.

*Fridrix Nitsşe, "Xeyir və şərin o tayında"*

Nə yaxşıdır? – İnsanda hakimiyyət hissini, hakimiyyətə doğru iradəni, hakimiyyətin özünü yüksəldən hər şey.

Pis nədir? – Zəiflik üzündən baş verən hər şey.

Xoşbəxtlik nədir belə? – Artan hakimiyyət hissi, özünüzə qarşı aparılan fəaliyyətin adlanıb keçilməsi duyğusu.

*Fridrix Nitsşe, "Antixrist"*

Bu iki elementin – məlahətin və keçməyin qaynağı həyati dərəcədə, beləliklə də, bizim indi müzakirə etdiyimiz sevgi üçün həyati dərəcədə vacibdir... Sevgi-